RSM Azerbaijan LLC

# THE POWER OF BEING UNDERSTOOD

AUDIT | TAX | CONSULTING

RSM

**"Stock Baku" Qapalı Səhmdar Cəmiyyəti**

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidasiya edilmiş Maliyyə Hesabatları**

*31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə Müstəqil Auditorun Hesabatı ilə birlikdə*

**Mündəricat**

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı rəhbərliyin məsuliyyətinin bəyanı**

**Müstəqil Auditorun Hesabatı**

**Konsolidasiya edilmiş maliyyə hesabatları**
Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat ........ 1
Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat........ 2
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat ........ 3
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 4
Konsolidasiya edilmiş maliyyə hesabatı üzrə izahlı qeydlər........ 5-32

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatının 1-ci səhifəsində göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Stock Baku" QSC-nin (bundan sonra "Qrup") konsolidasiya edilmiş maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditor arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Qrupun 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə maliyyə vəziyyətini, həmin ildə başa çatan il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və konsolidasiya edilmiş maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nin tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Qrupun normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Qrup daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və konsolidasiya edilmiş maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Qrupun fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2023-cü il başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun rəhbərliyi tərəfindən 16 iyul 2024-cü ildə təsdiq edilmişdir.

| | |
|---|---|
| Vüsal Qasımov<br>Direktor | Gündüz Qurbanzadə<br>Baş mühasib |

RSM Azerbaijan
Demirchi Tower 5th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

## Müstəqil Auditorun Hesabatı

"Stock Baku" QSC -nin rəhbərliyinə və cavabdeh olan səlahiyyətli şəxslərə:

### Rəy

Biz "Stock Baku" QSC-nin onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2023-cü tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün əks etdirir.

### Rəyin bildirilməsi üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin *"Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir. Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

### Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və Qrupun idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

RSM

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Qrupu ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Qrupun öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Qrupun idarəedilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş konsolidasiya edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.
BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;

- Qrupun daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanır. Lakin sonrakı hadisələr və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

16 iyul 2024-cü il
Bakı, Azərbaycan Respublikası

RSM Azerbaijan

**"Stock Baku" QSC**
**Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat**
**31 dekabr 2023-cü il tarixinə**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 6 | 3,908,618 | 3,904,225 |
| Qeyri-maddi aktivlər | 6 | 22,500 | - |
| İnvestisiya mülkiyyəti | 7 | 3,990,500 | 3,250,445 |
| Uzunmüddətli aktivlərin alınması üçün verilmiş avanslar | 8 | 63,745 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | | **7,985,363** | **7,154,670** |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 9 | 3,537,492 | 2,572,795 |
| Ticarət və digər debitor borcları | 10 | 93,667 | 79,305 |
| Digər cari aktivlər | 11 | 52,570 | 55,188 |
| **Cəmi cari aktivlər** | | **3,683,729** | **2,707,288** |
| **CƏMİ AKTİVLƏR** | | **11,669,092** | **9,861,958** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 12 | 7,343,500 | 7,343,500 |
| Bölüşdürülməmiş mənfəət | | 3,979,735 | 2,114,133 |
| Digər kapital | 13 | 11,476 | 11,476 |
| **Cəmi kapital** | | **11,334,711** | **9,469,109** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 20 | 42,917 | 51,593 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **42,917** | **51,593** |
| **Cari öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 14 | 46,972 | 44,464 |
| Digər cari öhdəliklər | 15 | 131,580 | 70,983 |
| Mənfəət vergisi öhdəliyi | | 112,912 | 225,809 |
| **Cəmi cari öhdəliklər** | | **291,464** | **341,256** |
| **Cəmi öhdəliklər** | | **334,381** | **392,849** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **11,669,092** | **9,861,958** |

16 iyul 2024-cü il tarixində Qrupun adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

STOCK BAKU

Vüsal Qasımov
Direktor

Gündüz Qurbanzadə
Baş mühasib

5-32-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

**"Stock Baku" QSC**
**Konsolidasiya edilmiş mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat**
**31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| Gəlirlər | 16 | 3,770,797 | 3,552,396 |
| Satışların maya dəyəri | 17 | (852,023) | (772,574) |
| **Ümumi mənfəət** | | **2,918,774** | **2,779,822** |
| İnzibati xərclər | 18 | (575,432) | (398,042) |
| Gözlənilən kredit zərəri üzrə ehtiyat xərcinin azalmasından gəlir/ (xərc) | 9 | 4,514 | (5,426) |
| Digər gəlirlər | 19 | 4,440 | 13,882 |
| **Vergidən əvvəlki mənfəət** | | **2,352,296** | **2,390,236** |
| Mənfəət vergisi xərci | 20 | (486,694) | (478,432) |
| **İl üzrə cəmi məcmu gəlir** | | **1,865,602** | **1,911,804** |

16 iyul 2024-cü il tarixində Qrupun adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Vüsal Qasımov
Direktor

Gündüz Qurbanzadə
Baş mühasib

STOCK BAKU

5-32-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## "Stock Baku" QSC
## Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat
## 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə
*Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Səhm kapitalı | Bölüşdürülməmiş mənfəət | Digər kapital | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixinə** | **7,343,500** | **709,864** | - | **8,053,364** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,911,804 | - | 1,911,804 |
| Digər kapitalda artım | - | - | 11,476 | 11,476 |
| Ödənilmiş dividend | - | (507,535) | - | (507,535) |
| **31 dekabr 2022-ci il tarixinə** | **7,343,500** | **2,114,133** | **11,476** | **9,469,109** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,865,602 | - | 1,865,602 |
| **31 dekabr 2023-cü il tarixinə** | **7,343,500** | **3,979,735** | **11,746** | **11,334,711** |

16 iyul 2024-cü il tarixində Qrupun adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Vüsal Qasımov
Direktor

Gündüz Qurbanzadə
Baş mühasib

5-32-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

**"Stock Baku" QSC**
**Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
**31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Vergidən əvvəlki mənfəət | | 2,352,296 | 2,390,236 |
| **Vergidən əvvəl mənfəəti xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər** | | | |
| Gözlənilən kredit zərəri üzrə ehtiyat xərcinin azalmasından gəlir/ (xərc) | 9 | (4,514) | 5,426 |
| İnvestisiya mülkiyyətinin köhnəlməsi | 7 | 226,778 | 242,954 |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | 6 | 48,245 | 26,244 |
| Qeyri-maddi aktivlərin amortizasiya | | 2,500 | - |
| Əsas vəsaitlərin silinməsindən zərər | | 481 | - |
| **Dövriyyə vəsaitlərində dəyişikliklər** | | **2,625,786** | **2,664,860** |
| Ticarət və digər debitor borclarında artım | 9 | (9,848) | (36,772) |
| Digər cari aktivlərdə (azalm)/ artım | 10 | 2,618 | (27,100) |
| Ticarət və digər kreditor borclarında artım | 13 | 2,508 | 4,760 |
| Digər cari öhdəliklərdə artım | 14 | 60,597 | 35,443 |
| **Vergidən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **2,681,661** | **2,641,191** |
| Ödənilmiş mənfəət vergisi | | (608,267) | (356,475) |
| **Əməliyyat fəaliyyətindən daxil olan/ (istifadə edilən) xalis pul vəsaitləri** | | **2,073,394** | **2,284,716** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Əmlak, tikili və avadanlıqların alınması | 6 | (53,119) | (140,456) |
| İnvestisiya mülkiyyətinin alınması | 7 | (1,015,267) | (39,603) |
| Törəmə müəssisənin alınması | | - | 9,715 |
| Qeyri-maddi aktivlərin alınması | | (40,311) | - |
| **İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(1,108,697)** | **(170,344)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Ödənilmiş dividendlər | | - | (507,535) |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | - | **(507,535)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım** | | **964,697** | **1,606,837** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin əvvəlinə** | | **2,572,795** | **965,958** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri – ilin sonuna** | | **3,537,492** | **2,572,795** |

16 iyul 2024-cü il tarixində Qrupun adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Vüsal Qasımov
Direktor

Gündüz Qurbanzadə
Baş mühasib

5-32-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.

## 1. Qrupun əsas fəaliyyəti

"Stock Baku" QSC (bundan sonra – "Cəmiyyət") Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq 04 iyun 2021-ci il tarixində 1604394561 qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq yaradılmışdır.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin səhmlərinin 100%-i Zeynalov Əliş Əlimərdana məxsusdur.

**Cəmiyyətin əsas fəaliyyəti.** Cəmiyyətin əsas fəaliyyəti anbar və ofis binalarının icarəyə verilməsindən ibarətdir.

**Cəmiyyətin hüquqi ünvanı:** Nizami rayonu, Əli Əliyev, ev 1, AZ1029, Bakı şəhəri, Azərbaycan Respublikası.

Cəmiyyətin 31 dekabr 2023-ci il tarixinə 13 nəfərdən ibarət işçi heyəti var (31 dekabr 2022-ci il tarixinə: 12).

"Stock Baku" QSC -nin ana şirkət olduğu törəmə təşkilat aşağıda qeyd edilmişdir:

**Törəmə müəssisə və onun fəaliyyəti**

"Premium Garage" QSC ("Təşkilat") 21 noyabr 2003-cü ildə qeydiyyata alınmışdır. Təşkilatın əsas fəaliyyəti qeyri-yaşayış obyektlərinin icarəyə verilməsindən ibarətdir.

28 iyul 2022-ci il tarixli "Qiymətli kağızlarla alqı-satqı haqqında müqaviləsi"-nə əsasən "Premium Garage" QSC -nin 100%-lik nizamnamə kapitalı "Stock Baku" QSC tərəfindən satın alınmışdır.

**Törəmə müəssisəsənin hüquqi ünvanı:** Nizami rayonu, Babək pr., ev 1A, AZ1119, Bakı şəhəri, Azərbaycan.

## 2. Əməliyyat mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir.

Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 3,7 faiz artmışdır. 2022-ci ilə qəbul edilmiş dövlət büdcəsində neft transferlərinin əvvəlki illə müqayisədə artması milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyəcəkdir. Digər tərəfdən anti-inflyasiya xarakterli pul siyasəti daxili tələbin monetar amillərin tarazlı səviyyədə qorunmasına xidmət edəcəkdir. Müvəqqəti xarici və daxili xərc amillərinin qiymətlərə təsiri neytrallaşdıqca, balanslaşdırıcı rol oynayan amonetar amillərin inflyasiyaya azaldıcı təsirləri güclənəcək.

2023-cü ildə ölkədə 123 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin,əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 05 yanvar tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilmişdir.

2023-cü ilin avqust ayında "Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycan iqtisadiyyatı üçün reytinqini "Ba1" səviyyəsində təsdiqləyib və proqnoz sabit olaraq qalıb..

## 2. Əməliyyat mühiti (davamı)

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər və bu da dövlət maliyyəsinin pisləşməsinə, maliyyə bazarlarının qeyri-sabitliyinə, kapital bazarlarında qeyri-likvidliyə, inflyasiyanın artmasına və milli valyutanın əsas xarici valyutalara nisbətdə dəyərdən düşməsinə gətirib çıxara bilər.

Mövcud iqtisadi vəziyyətin gələcək təsirlərini və yuxarıda qeyd olunan tədbirləri qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

Gözlənilən kredit zərərinin ("GKZ") qiymətləndirilməsi məqsədilə, Cəmiyyət makroiqtisadi dəyişənlər üzrə proqnozlar daxil olmaqla, dəstəkləyici gələcək məlumatlardan istifadə edir. Hər bir iqtisadi proqnozda olduğu kimi, onların reallaşması ilə bağlı fərziyyələr və ehtimallar yüksək dərəcəli qeyri-müəyyənliklə əlaqəlidir və buna görə də faktiki nəticələr proqnozlaşdırılan nəticələrdən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Cəmiyyətin rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri

### Maliyyə hesabatlarının tərtib edilməsinin əsas prinsipləri

### Uyğunluq haqqında bəyannamə

Qrup konsolidasiya edilmiş maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlayır. Qrupun hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas mühasibat uçotu prinsipləri aşağıda təqdim olunur. Qeydlərdə başqa izahat verilməmişdirsə, həmin prinsiplər təqdim olunmuş bütün dövrlərə ardıcıl qaydada tətbiq edilmişdir.

### Təqdimatın əsasları

Konsolidasiya edilmiş maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərində başqa cür qeyd olunmayıbsa (məsələn, müəyyən maliyyə alətləri ədalətli dəyər prinsipi ilə ölçülür) tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır.

### Funksional və hesabat valyutası

Qrupun funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

### Konsolidasiya üçün əsaslar

Konsolidə edilmiş maliyyə hesabatları Qrupun və onun törəmə müəssisələrinin (Qrup tərəfindən nəzarət edilən müəssisələrin) maliyyə hesabatlarını özündə birləşdirir. Qrupun öz törəmə müəssisəsinin fəaliyyətindən fayda əldə etmək üçün təşkilatın maliyyə və əməliyyat siyasətini idarə etmək səlahiyyətinə malik olması halında ona nəzarət edir.

İl ərzində əldə edilmiş və ya satılmış törəmə müəssisələrin gəlir və xərcləri öz törəmə müəssisəsinin satın alınmanın qüvvəyə mindiyi tarixdən etibarən, törəmə müəssisənin silinməsi tarixinə qədər konsolidasiya edilmiş məcmu gəlir hesabatında müvafiq qaydada tanınır.

**3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)**

**Konsolidasiya üçün əsaslar (davamı)**

Törəmə müəssisələrin məcmu gəlirləri Qrup sahiblərinə və hətta törəmə müəssisəyə nəzarət etməyən mənfi tərəflər üçün saldonun yaranması ilə nəticələnsə belə, nəzarət etməyən tərəflərə aid edilir.

Lazım olduqda törəmə müəssisələrdə tətbiq edilən mühasibat uçotu qaydalarının Qrupun digər üzvləri tərəfindən istifadə olunan mühasibat uçotu qaydalarına uyğunlaşdırılması üçün törəmə müəssisələrin maliyyə hesabatlarına düzəlişlər edilir.

Bütün qrupdaxili əməliyyatlar və qalıqlar konsolidasiya zamanı tam şəkildə ləğv edilir.

**Qudvil**

Müəssisələrin birləşdirilməsi zamanı yaranan, fərdi müəyyənləşdirilməsi mümkün olmayan və ayrıca tanınmayan aktivlərdən alınacaq gələcək iqtisadi səmərənin əldə edilməsi müqabilində alıcı tərəfindən edilmiş ödənişdir. İnvestisiya qoyuluşu ilə mühasibat uçotu subyektinin xalis aktivlərinin dəyəri arasındakı müsbət fərq qudvil kimi uçota alınır. Asılı təsərrüfat cəmiyyətinə aid olan qudvil investisiyanın balans dəyərinin bir hissəsini təşkil edir. Həmin qudvilin amortizasiya edilməsinə yol verilmir. Asılı təsərrüfat cəmiyyətinə investisiya qoyuluşunun ilkin dəyəri asılı təsərrüfat cəmiyyətinin xalis aktivlərinin dəyərindən artıq olduğu halda yaranan fərqə müvafiq mühasibat yazılışı verilir.

**Dəyərsizləşmə indiqatorları**

Pul vəsaitlərini yaradan vahidlərin və fərdi aktivlərin bərpa edilən dəyəri istifadə dəyəri hesablamalarından böyük və ədalətli dəyər satış üçün nəzərdə tutulan ədalətli dəyər satış üçün nəzərdə tutulan dəyərdən azdır. Bu hesablamalar təxminlərin və fərziyyələrin istifadəsini tələb edir. Neft qiymətlərinin dəyişməsinin sahənin təxmin edilən istifadə müddətininə və qudvil və maddi aktivlərin balans dəyərinə əhəmiyyətli dəyişiklik edilməsi kimi dəyişikliklərə səbəb olması ehtimal oluna bilən haldır. Qrup maddi və qeyri-maddi aktivlərlə bağlı dəyərsizləşməsinin daxili və xarici göstəricilərinə nəzarət edir. Qudvil hər il dəyərsizləşmə üçün sınaqdan keçirilir.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Qrup aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əasında maliyyə vəziyyəti haqqında hesabatda təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulan və ya satılması ehtimal edilən;
- İlkin olaraq ticarət məqsədilə saxlanılan;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edilən; və ya
- Hesabat tarixindən ən az on iki ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalanetləri.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır. Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənilən;
- İlkin olaraq ticarət məqsədilə saxlanılan;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edilən; və ya
- Hesabat dövründən sonra ən az on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud deyil.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Müəssisələrin birləşməsi

Müəssisələrin birləşməsi alış metodunu tətbiq etməklə uçota alınır. Alışın dəyəri alış tarixində ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləğinin və əldə edilən müəssisədə qeyri-nəzarət payının cəmi kimi ölçülür. Müəssisələrin birləşməsi üçün alıcı əldə edilən müəssisədə qeyri-nəzarət iştirak payını ədalətli dəyərlə, yaxud da əldə edilən müəssisənin müəyyən edilə bilən xalis aktivlərindəki payına proporsional olaraq qiymətləndirir. Çəkilmiş alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə daxil edilir. Qrup hər hansı müəssisəni satın aldıqda, münasib təsnifləşdirmə və təyin etmə məqsədilə maliyyə aktivlərini və öhdəliklərini müqavilə şərtləri, iqtisadi şərait, alış tarixində mövcud olan digər uyğun şərtlər əsasında qiymətləndirməlidir. Buna əldə edilən müəssisə tərəfindən əlaqədar törəmə alətlərin əsas müqavilədə ayrılması da aid edilir.

Müəssisələrin mərhələlərlə birləşdirilməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə əvvəllər mövcud olan iştirak payı alış tarixində ədalətli dəyərlə yenidən ölçülür və nəticədə yaranan gəlir və ya zərər müvafiq olaraq mənfəət və ya zərərdə tanınır.

*Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələr*

Ümumi nəzarət altında olan müəssisələrlə birləşmələrə Qrup mühasibat uçotunun alış metodunu tətbiq edir.

### Fasiləsizlik prinsipi

Bu konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur. Rəhbərlik hesab edir ki, Qrup yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Qrupun likvidasiyasına nə istək, nə də ehtiyac olmayacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcud deyil.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Qrupun aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Qrupun fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir. Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirməsi, müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur:**

Ədalətli dəyər - qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan əməliyyatlarda aktivin satılması zamanı alınan və ya öhdəliyin köçürülməsi zamanı ödənilən qiymətdir.

Aktivin və ya öhdəliyin ədalətli dəyərini müəyyən edərkən Qrup mümkün dərəcədə bazarda müşahidə edilə bilən informasiyalardan istifadə edir. Əgər aktivin və ya öhdəliyin ədalətli dəyəri müəyyən oluna bilmirsə, Qrup müşahidə edilə bilən məlumatların istifadəsini maksimumlaşdıran və müşahidə edilə bilməyən məlumatların istifadəsini minimumlaşdıran (oxşar əməliyyatlar üçün qiymətləri, diskontlaşdırılmış pul vəsaitləri hərəkətinin təhlilini və ya emitentin xüsusi hallarda opsiyon qiymət qoyma modelini əks etdirən müqayisəli bazar yanaşmasının istifadəsi) qiymətləndirmə mexanizmlərindən istifadə edir. İstifadə olunan məlumatlar bazar iştirakçılarının nəzərə aldığı aktiv və öhdəliyin xarakteristikalarına uyğundur.

Ədalətli dəyər qiymətləndirmə üçün məlumatların müşahidə edilə bilmə dərəcəsinə və bütünlüklə ədalətli dəyərin müəyyən olunmasında məlumatların əhəmiyyətinə əsaslanaraq müxtəlif iyerarxik kateqoriyalara bölünür:

**3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)**

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında qəbul edilən əsas uçot prinsipləri aşağıda qeyd edilmişdir. Bu prinsiplər istisna hallar göstərilmədiyi təqdirdə, bütün illərə davamlı olaraq tətbiq olunur: (davamı)**

- 1-ci səviyyə - ədalətli dəyər eyni aktivlər və öhdəliklərin aktiv bazardakı mövcud qiymətindən (dəyişdirilməmiş) əldə edilir;
- 2-ci səviyyə - ədalətli dəyər 1-ci səviyyədə göstərilən mövcud qiymətlərdən fərqli olaraq aktiv və ya öhdəlik üçün birbaşa (məs., qiymətlər) və ya dolayı yolla ( qiymətlərdən əldə olunan) müşahidə edilə bilən məlumatlardan əldə olunur;
- 3-cü səviyyə - ədalətli dəyər müşahidə edilən bazar məlumatlarına əsaslanmayan (müşahidə edilə bilinməyən məlumatlar ) aktiv və öhdəliklər üçün məlumatları özündə əks etdirən qiymətləndirmə mexanizmlərindən əldə olunur.

Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasındakı köçürmələr Qrup tərəfindən dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda tanınır.

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* müstəqil şəkildə fəaliyyət göstərən yaxşı məlumatlandırılmış müstəqil tərəflər arasında əməliyyatın ümumi şərtlər əsasında həyata keçirildiyi zaman aktivin mübadilə edilə bildiyi və ya öhdəliyin yerinə yetirildiyi məbləği təşkil edir. Ədalətli dəyər fəal bazarda alınıb satılan maliyyə aktivləri üzrə cari tələb qiymətini və maliyyə öhdəlikləri üzrə cari təklif qiymətini əks etdirir. Bazar riskləri qarşılıqlı şəkildə əvəzləşdirilən aktiv və öhdəliklər ilə əlaqədar Qrup qarşılıqlı surətdə əvəzləşdirilən risklər üzrə ədalətli dəyər göstəricilərinin müəyyən edilməsi üçün orta bazar qiymətlərindən istifadə edə bilər və xalis açıq mövqeyə müvafiq tələb və təklif qiyməti tətbiq edə bilər.

Maliyyə aləti fəal bazarda o zaman sərbəst surətdə alınıb satıla bilən aktivlər kimi qəbul edilir ki, onların qiymətləri haqqında məlumat fond birjasında və ya digər maliyyə Təşkilatından sərbəst və müntəzəm şəkildə əldə edilə bilsin və bu zaman həmin qiymətlər könüllü şəkildə bazar şərtləri çərçivəsində həyata keçirilən real və müntəzəm əməliyyatları əks etdirsin.

Bazar qiymətləri mövcud olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün diskont edilmiş pul vəsaitlərinin hərəkəti modeli, könüllü şəkildə həyata keçirilən ən son əməliyyatlar haqqında məlumata əsaslanan modellər kimi qiymətləndirmə üsulları, eləcə də investisiya qoyulan müəssisələr haqqında maliyyə məlumatlarının təhlili istifadə edilir. Qiymətləndirmə üsulları müşahidə edilə bilən bazar məlumatları ilə dəstəklənməyən fərziyyələrin istifadə olunmasını tələb edə bilər. Bu fərziyyələrin hər-hansı birinin mümkün alternativ variantla əvəz edilməsi nəticəsində mənfəət, gəlir, aktiv və öhdəliklərin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb olacaq hallar barədə məlumat hazırkı maliyyə hesabatlarında açıqlanır.

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir.

Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri maliyyə xərclərinə daxil edilmir.

## 3. Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər-hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

